Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Musiqi
Mədəniyyəti Dövlət Muzeyi

## Niyazinin arxiv materialları
## Azərbaycan Musiqi Mədəniyyəti
## Dövlət Muzeyində

# KATALOQ

**Not əlyazmaları**
**Sənədlər**
**Proqramlar**
**Afişalar**

BAKI - 2013

Kataloq Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyinin maddi dəstəyi ilə
nəşr olunmuşdur

Layihənin rəhbəri və elmi redaktoru: Alla Bayramova
Tərtibçi redaktor: Rza Bayramov
Layihə iştirakçıları: Alla Fyodorova, Xanım Abdinova, Ülviyyə Mehdiyeva,
Ofelya Babayeva

© Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi, 2013


CƏNABLARI

# ÖN SÖZ

Azərbaycan musiqi tarixində elə simalar var ki, onların yaradıcılığı dünya musiqi xəzinəsinə daxil olmuşdur. Belə sənətkarlar sırasında görkəmli dirijor, bəstəkar, ictimai xadim, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı, Beynəlxalq Nehru mükafatı laureatı Maestro Niyazinin (Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyov) xüsusi yeri vardır. Mədəni irsimizin qorunmasında, milli simfonizmin inkişafında, təbliğində, dünya miqyasında tanınmasında, Azərbaycan dirijorluq məktəbinin formalaşmasında Niyazinin xidmətləri danılmazdır. Ümummilli liderimiz Heydər Əliyevin 1994-cü il sentyabrın 18-də Niyazinin mənzil muzeyinin açılışında qeyd etdiyi kimi, "Niyazinin ən böyük xidməti ondan ibarətdir ki, o həm bəstəkar kimi milli musiqimizi zənginləşdirmiş, Azərbaycan mədəniyyətinə, milli musiqimizə böyük töhfələr vermiş və eyni zamanda bir dirijor kimi Üzeyir Hacıbəyovdan başlayaraq gənc bəstəkarlaradək Azərbaycanın ən görkəmli bəstəkarlarının yaratdıqları əsərlərin meydana çıxması, xalqa çatdırılması, səhnələrdə tamaşaya qoyulması üçün misilsiz işlər görmüşdür".

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin kolleksiyasında saxlanılan 50 mindən artıq materialdan 6200-ü Maestro Niyaziyə aiddir. Bunlar bəstəkarın müəllif not əlyazmaları, müxtəlif proqramlar, sənədlər, afişalar, kitablar, qramvallar, rəsm əsərləri, fotoşəkillər, şəxsi geyim və əşyalardan ibarətdir. Bu materiallar Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filiallarından biri olan Niyazinin mənzil muzeyində nümayiş olunur. Niyazi bu mənzildə (Bülbül pr., 21, mənzil 24) 1958-ci ildən ömrünün sonunadək, yəni 1984-cü ilədək yaşamışdır.

Təqdim olunan Kataloqda Niyazinin not əlyazmaları, sənədlər, proqramlar və afişaların siyahısı –cəmi 458 ədəd material təqdim olunmuşdur. Bəzi materialların fotoşəkilləri də əlavə olunur.

İnanırıq ki, təqdim olunan bu nəşr Niyazi yaradıcılığı tədqiqatçılarının və Azərbaycan mədəniyyətini sevənlərin marağına səbəb olacaqdır.

**Alla Bayramova**
*Azərbaycan Musiqi Mədəniyyəti*
*Dövlət Muzeyinin direktoru,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru,*
*Əməkdar mədəniyyət işçisi*





Ümummilli lider Heydər Əliyev Niyazinin
mənzil muzeyinin açılışında.
18 sentyabr 1994-cü il



Mstislav Rostropoviç Niyazinin
mənzil muzeyində.
2 may 1997-ci il




Bella Davidoviç Niyazinin mənzil muzeyində.
13 sentyabr 1998-ci il



Xalq artistləri Fərhad Bədəlbəyli və Xuraman Qasımova
Niyazinin 90 illiyinə həsr olunmuş tədbirdə. Niyazinin mənzil muzeyi.
20 avqust 2002-ci il



Niyazinin "Piano üçün pyeslər" not kitabının təqdimat mərasimində.
25 yanvar 2005-ci il



Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayev Niyazinin Xatirə lövhəsinin açılışında. 25 dekabr 2006-cı il



Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayev Niyazinin mənzil muzeyində. 25 dekabr 2006-cı il



Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə ilə Klassik musiqi həvəskarları klubunda görüş. Niyazinin mənzil muzeyi.
1 iyul 2009-cu il



Niyazinin mənzil muzeyinin əməkdaşları

# NİYAZİNİN NOT ƏLYAZMALARI

*(xronoloji ardıcıllıqla)*

1926 Azərbaycan (talış) xalq mahnıları. № 5 "Gül bağçalar", № 28 "Dünya pənc". Niyazinin "Ləc kəndində yazılmışdır. Bakı-1926-cı il" qeydi ilə. Tam. 1 vərəq, 2 səh.. Niyazinin arxivi. DK №14752.

1929 "Zarafat"-fortepiano üçün pyes. 13.01.1929-cu il. Niyazinin imzası ilə. Tam. 4 vərəq, 7 səh. Niyazinin arxivi. DK № 14735/11.

1930 "Skertso"- fortepiano üçün pyes. Niyazinin "Niyazi Tağızadə. Moskva-Konservatoriya" qeydi ilə. Natamam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14730/11.

1930 Fortepiano üçün "Prelüd". 20.12.1930-cu il. Niyazinin "20.12.1930-cu il Tağızadə" imzası ilə. Tam. 1 vərəq, 1 səh.. Niyazinin arxivi. DK № 14724.

1931 Fortepiano üçün "Rəqs". 1931-ci il. Niyazinin imzası ilə.Tam, 1 vərəq, 1 səh, Niyazinin arxivi. DK 14730/155.

1932 Ləzgihəngi tempində xalq təranəsi. Xalq musiqisi. Sözləri Xanmirzəyevə məxsus. Mahaçqala, Dağıstan SSR. 28.9.1932-ci il. Niyazinin arxivi. Tam, 1 vərəq, 1 səh.. DK № 14730/103.

1932 Simfonik orkestr üçün əsər, partitura. 26.10.1932-ci il. Niyazinin arxivi. Tam, 2 vərəq, 3 səh. DK № 14730/105.

1934 "Andante" Simfonik orkestr üçün partitura. 26.3.1934-cü il. Niyazinin "Həcərə həsr edirəm" imzası ilə. Natamam, 2 vərəq, 3 səh.. Niyazinin arxivi. DK № 14730/144.

1934 Simfonik orkestr üçün "Uvertüra". Partitura. 05.11.1934-cü il. Niyazinin "Dirijora: Uvertüra maksimum ağır gedir, lirikaya ciddi diqqət yetirilsin, qaboy, fleyta və trubalar kontrast kimi götürülsün". Niyazi, 3.11.1934-cü il Bakı" qeydi ilə. Natamam, 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/91.

1934 Klarnet üçün solo partiya. 09.07.1934-cü il. Niyazinin imzası ilə. Tam 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14735/37.

1934 Ü.Hacıbəyov. "Şur", 2-ci fantaziya"sının Niyazi tərəfindən Simfonik Orkestr üçün instrumentovkası. 23.03. 1934-cü il. Niyazinin imzası ilə. Tam, 2 vərəq, 3 səh. DK № 14730/132.

1934 Fortepiano üçün "Rəqs". 28.04.1934-cü il. Niyazinin " Azərbaycan Dövlət Teatr muzeyinə bəxşiş edirəm. Bakı, 28 aprel 1934-cü il. Niyazi" hədiyyə yazısı ilə. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi.

1934 Fortepiano üçün “Rəqs”. 28.04.1934-cü il. “Həcər Kafiyə həsr edirəm, 28.04.1934-cü il” hədiyyə yazısı ilə. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14735/20

1934 Simfonik orkestr üçün əsərin I hissəsi. Partitura. 03.03.1934-cü il. Natamam. Niyazinin imzası ilə. 18 vərəq, 36 səh. Niyazinin arxivi. DK № 14730/157.

1935 Xalq çalğı alətləri orkestri üçün əsər. Partitura. 27.01.1935. Niyazinin imzası ilə: “Notlu şərq orkestrosu üçün”. Natamam. 1vərəq, 2 səh.Niyazinin arxivi. DK № 14730/158.

1935 “Polad” bədii, səsli, uşaq kinofilminə orkestr üçün musiqi. Partitura. 19.11.1935-ci il. Niyazinin imzası ilə. 11 vərəq, 22 səh. Niyazinin arxivi. DK № 14730/68.

1935 A. Dobruşkes və Niyazi “Fortepiano üçün suita” Simfonik orkestr üçün partitura. Niyazinin imzası ilə. 30.08.1935-ci il. Natamam. 6 vərəq, 12 səh. Niyazinin arxivi. DK № 14730/76.

1935 Fortepiano üşün “Uşaq mahnıları” 1) Şikəstə, 2) Yaz çağı. 1935-ci il. Niyazinin imzası ilə. Tam. 2 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/104.

1935 Azərbaycan SSR Xalq artisti Cabbar Qaryağdı oğlunun ifasından yazılmış “Şur”, “Rast” muğamları. Niyazinin qeydi: “Şur” və “Rast”muğamları Azərbaycanın Xalq artisti C.Qaryağdının ifasından yazılmışdır, may - iyun 1935-ci il. Bakı. Niyazi”. Natamam. 11 vərəq, 18 səh. Niyazinin arxivi. DK № 14751.

1935 Cəfər Cabbarlının eyniadlı pyesi olan “1905-ci ildə” tamaşasına musiqi. Alətlərin orkestrovka partiyaları. Niyazinin “Mus. Niyazi” qeydi ilə. Natamam. 33 vərəq, 60 səh. Niyazinin arxivi. DK № 14722/69.

1935 “Almaz” kinofilminə musiqi. Andantino, Moderato, Alleqretto. Klavir. Tam. 3 vərəq, 5 səh. Niyazinin arxivi. DK № 14735/18.

1935 “Almaz” kinofilminə musiqi. Klavir. Natamam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14722/83.

1935 Ü.Hacıbəyli. “Ləzgihəngi”. Niyazinin simfonik orkestr üçün instrumentovkası. Partitura. 08.11.1935-ci il. Niyazinin “Ləzgihəngi, musiqisi Ü.Hacıbəylinin orkestroya yazan Niyazi, Bakı 8/XI – 35-il”. Natamam. 2 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/169.

1935 “Almaz” kinofilminə eskizlər. “Ülkər üçün” , 2 vərəq, 3 səh.. Niyazinin arxivi. DK № 14730/154.

1936 “Ləzgi rəqsi”. Orkestr üçün. (tar, kamança və Simfonik orkestr üçün). Partitura. 12.03.1936-cı il. Tam. 5 vərəq, 10 səh. Niyazinin imzası və “Niyazi, Bakı, 12/III-36 il” qeydi ilə. Niyazinin arxivi. EKF № 2467

1936 “Almas” kinofilminə orkestr üçün (tütəklə) musiqi. Partitura. 20.09.1936-cı il. Niyazinin imzası ilə. Natamam. 4 vərəq, 6 səh. Niyazinin arxivi. DK № 14730/62.

1936 Tarla Simfonik orkestr üçün“Andantino” və “Fraqment”. Partitura. 1936-cı il. Niyazinin imzası ilə. Natamam. 3 vərəq, 6 səh. Niyazinin arxivi. DK № 14730/63.

1936 Orkestr üçün “Yallı” rəqsi. Partitura. 03.10.1936-cı il. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK №14730/135.

1936 Simli kvartet üçün “Mahnı”. Partitura. 02.06.1936-cı il. Bakı. Niyazinin imzası ilə. Tam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14742.

1937 “Stalin haqqında mahnı” səs və fortepiano üçün. 15.02.1937-ci il. Moskva şəhəri, Niyazinin imzası ilə. Tam. 1vərəq, 2 səh. Niyazinin arxivi. DK 14735/38.

1938 “El sayağı” (xalq musiqisi). Orkestr üçün. Partitura. Sözləri: Süleyman Rüstəm. 16.03.1938-ci il. Niyazinin imzası ilə. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/9.

1938 Səs və fortepiano üçün mahnı. 28.10.1938-ci il. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/117.

1938 “Birinci namizəd” («Первый кандидат») Xor və fortepiano üçün mahnı. Sözləri Natiqindir. 27.05.1938-ci il. Niyazinin “3/VI-38, axşam saat 6-da bitirdim. Niyazi” qeydi ilə. Tam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK №14725.

1939 Simfonik orkestr və səs üçün əsər. Partitura. 08.07.1939-cu il. Niyazinin “08.07.39 il, Baku” qeydi ilə. Natamam. 2vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/149.

1939 Simfonik orkestr üçün final. Partitura. 19.11.1939-cu il. Niyazinin “Диалог Гай демира- С Bassi PP тянут “h” ” как органный пункт” qeydi ilə. Tam. 6 vərəq, 12 səh. Niyazinin arxivi. DK № 14735/35.

1939 “Kəklik”-orkestr üçün. Partitura. 08.07.1939-cu il. Niyazinin imzası ilə. Natamam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14730/44.

1939 “Kəndlilər”, eyniadlı kinofilmə orkestr üçün musiqi. Partitura. Niyazinin imzası ilə. Tam. 12 vərəq, 23 səh. Niyazinin arxivi. DK № 14730/45.

1939 “Rəhbərə” mahnısı. Sözləri Rəsul Rzanındır. 27.11.1939-cu il. Niyazinin imzası ilə. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/56.

1939 Simfonik orkestr üçün “Rəqs №1”. Partitura. 14.10.1939-cu il. Niyazinin imzası ilə. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/77.

1939 Simfonik orkestr üçün əsər. Partitura. 07.05.1939-cu il.“Niyazinin instrumentovka və hormoniyalaşdırması” qeydi ilə. Tam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14749

1939 “Musavat marşı”. “Kəndlilər” kinofilminə simfonik orkestr üçün yazılmış musiqi. Partitura. 27.04.1939-cu il. Niyazinin imzası ilə. Tam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK №14722/77.

1939 “Kənd”. Simfonik orkestr üçün musiqi. 16.11.1939-cu il. Moskva. Niyazinin “Niyazi 5.IV-40” imzası ilə. Tam. 12 vərəq, 24 səh. Niyazinin arxivi. DK № 14722/73.

1939 “Döyüş”. “Kəndlilər” kinofilminə simfonik orkestr üçün musiqi. Partitura. 04.11 - 07.11.1939-cu il. Moskva. Niyazinin “Niyazi. 9/XI-39, Moskva” qeydi ilə. Tam. 11 vərəq, 21 səh. Niyazinin arxivi. DK №14722/76.

1940 “Rəcəb, xor və Lalə”, orkestr üçün partitura. 27.3.1940-cı il. Niyazinin qısa qeydləri: “150 rəqəminə” 20 takt sərbəst saxlamaq. Sonra 3-cü nömrəni yazmaq”. Natamam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14722/63.

1940 “Bakılıların xoru”, nəfəsli orkestr üçün (Banda ilə) partitura. 13.04.1940-cı il. Niyazinin imzası və “1) banda “10”- dan “15”- ə təkrar etsin. 2) “10”- dan “15”- ə qədər təkrar etmək” qeydləri ilə. Tam. 2 vərəq 4 səh. Niyazinin arxivi. DK №14730/141.

1940 “ Zirehli qatarın gəlişi”, simfonik orkestr üçün partitura. 13.04.1940-ci il. Niyazinin imzası ilə. Tam. 6 vərəq, 10 səh. Niyazi arxivi. DK №14730/58.

1940 “Mahnıdan sonra”, orkestr üçün partitura. 28.10.1940-cı il. Niyazinin imzası ilə. Natamam. 2

vərəq, 2 səh. DK №14730/11.

1940 "Qəza", simfonik orkestr üçün partitura. 28.10.1940-cı il. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/119.

1940 "Səfər" ("Yeni horizont") kinofilminə simfonik orkestr üçün musiqi. Partitura. 08.04.1940-cı il. Niyazinin imzası ilə. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK 14728.

1940 "Azərbaycan" mahnısı. Partitura. Musiqisi - Tofiq Quliyev. Sözləri - A.Əsgərov. Niyazi tərəfindən orkestr üçün instrumentovkası. 14.11.1940-cı il. Niyazinin imzası ilə. Tam. 4 vərəq, 8 səh. Niyazinin arxivi. DK № 14747.

1940 "Kəklik" valsı. Simfonik orkestr üçün. Partitura. 27.10.1940-cı il. Niyazinin imzası ilə. Tam. 4 vərəq, 7 səh. Niyazinin arxivi. DK № 14726.

1941 "Xosrov və Şirin" operasından səs və orkestr üçün Şirinin ariyası. Partitura. 1941–ci il. Bakı. Niyazinin "Ниязи 1941 год Баку" qeydi ilə.Tam. 9 vərəq, 17 səh.. Niyazinin arxivi. DK № 14739 a.

1941 Orkestr üçün əsər. Partitura. 06.06.1941-ci il. Niyazinin "Yoldaş Bağırov və Zərgərlinin qarşısında saat 11-də başladım, 5-də bitirdim. 6/VI.1941" qeydi ilə. Tam. 2 vərəq, 3 səh.. Niyazinin arxivi. DK № 14730/17.

1941 "Təbrizim". Səs və fortepiano üçün Süleyman Rüstəmin sözlərinə yazılmış mahnı. Tərcümə Zaltsmanındır. Niyazinin imzası və "Табриз 1941 год" qeydi ilə. Tam. 2 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14738.

1941 "Təbrizim". Simfonik orkestr üçün Süleyman Rüstəmin sözlərinə yazılmış romans. Partitura. Niyazinin "Табриз, ноябрь 1941 года" qeydi ilə. Tam. 4 vərəq, 7 səh. Niyazinin arxivi. DK № 14730/48.

1941 Fortepiano və səs üçün "Təbrizim" mahnısı. Niyazinin "SSRİ-nin Xalq artisti Bülbülə" qeydi ilə. Natamam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. EKF № 2468.

1941 "II akta giriş" orkestr üçün partitura. 10.04.1941-ci il. Niyazinin imzası ilə. Tam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/121.

1941 “Vals”, “Mazurqa”, “Həyəcan № 1 IV şəkil üçün”. Simfonik orkestr üçün partitura. Niyazinin “7/III” qeydi ilə. Tam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14735/47.

1942 “Azərbaycan diviziyasının marşı”. Nəfəsli orkestr üçün partitura. 11.05.1942-ci il. Niyazinin “Qardaşım Çingiz Hacıbəyova həsr edirəm. Niyazi. Bakı. 11/5-42” qeydi və imzası ilə. Natamam. 1 vərəq, 2 səh. Niyazi arxivi. DK № 14730/140.

1942 “Xosrov və Şirin” operası. II akt. Partitura. 29.02.1942-ci il. Niyazinin imzası ilə. Natamam. 20 vərəq, 40 səh. Niyazi arxivi. DK 14730/55.

1942 “Xosrov və Şirin” operası. 1942-ci il. Niyazinin imzası ilə. Natamam. 224 vərəq, 448 səh. Niyazinin arxivi. DK № 16446/1.

1942 Fortepiano və orkestr üçün “Rəqs”. İki fortepiano üçün işləmə. I və II. 26.01.1942-ci il. Niyazinin arxivi. Tam. 2 vərəq, 4 səh. DK № 14735/39.

1943 Niyazinin işləməsində xor üçün “Dağlarda çiçək” mahnısı. 23.09.1943-cü il. Niyazinin imzası ilə. Tam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/106.

1943 A.Aleksandrov. “SSRİ-nin himni”. Niyazinin simfonik orkestr üçün instrumentovkası. 10.01.1943-cü il. Bakı. Niyazinin imzası ilə. Tam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14746 a.

1944 “Səhər serenadası” - fortepiano və vibrafonla orkestr üçün. Partitura. 25.04.1944-cü il. Niyazinin imzası ilə. Natamam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14730/142.

1944 Ü.Hacıbəyli. “Arşın mal alan” musiqili komediyası. Niyazinin orkestrovkasının yeni redaktəsi. Klavir. 06.05.1944. Niyazinin imzası ilə. Natamam. 6 vərəq, 10 səh. DK № 14730/88, DK № 14730/90.

1944 Simfonik orkestr üçün əsərin II hissəsi. Partitura. Yanvar 1944 –cü il. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/102.

1944 Fortepiano üçün “Mahnı”. 04.02.1944-cü il. Niyazinin imzası ilə. Tam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/108.

1944 Ü.Hacıbəyli. “Arşın mal alan” musiqili komediyası. Niyazinin instrumentovkası və redaktəsi.

1944-cü il. Niyazinin imzası və işçi qeyləri ilə. Natamam. 70 vərəq, 114 səh. Niyazinin arxivi. DK № 14730/159.

1944 Ü.Hacıbəyli. "Arşın mal alan" musiqili komediyası. Niyazinin instrumentovkası və redaktəsi. 1944-cü il. Niyazinin imzası ilə. Natamam. 8 vərəq, 12 səh. DK № 14730/160.

1944 Fortepiano ilə orkestr üçün "Konsert". III hissə. İki fortepiano üçün işləmə. 20.01.1944-cü il. "Niyazi, 20.I.44 il" imzası ilə. Tam. 10 vərəq, 20 səh. Niyazinin arxivi. DK № 16072.

1945 Orkestr üçün paradda idman hərəkətlərinin musiqisi. Partitura. 02.06.1945-ci il. Niyazinin imzası və işçi qeydləri ilə. Tam. 9 vərəq, 16 səh. Niyazinin arxivi. DK № 14730/67.

1945 Nəfəsli orkestr üçün "Parad" musiqisi. 26.05, 03.06-1945-ci il. Niyazinin imzası ilə. Tam. 45 vərəq, 64 səh. Niyazinin arxivi. DK № 14722/68.

1946 "Aman". Xalq çalğı alətləri orkestri üçün əsər. 1946-cı il. Natamam. Niyazinin imzası ilə.1 vərəq, 1 səh.. Niyazinin arxivi. DK № 14730/38.

1947 "Fətəli xan" kinofilminə musiqi. Partitura. Natamam. Niyazinin imzası ilə. 8 vərəq, 14 səh. Niyazinin arxivi. DK № 14730/59.

1948 "Fətəli xan" kinofilminə yazılmış musiqinin üvertürası. Klavir. 28.02.1948- ci il. Niyazinin imzası ilə. Tam. 1vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/3.

1948 "Süzmə". Xalq çalğı alətləri orkestri üçün instrumentovka. Partitura. 10.10.1948. Niyazinin imzası ilə. Tam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14735/40.

1948 "Solo rəqs". Xalq çalğı alətləri orkestri üçün partitura. 24.10.1948-ci il. Niyazinin imzası ilə. Tam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14735/41.

1949 "Aşıq mahnısı". Aşıq Zeynalın sözlərinə yazılmış səs və fortepiano üçün mahnı. 14.09.1949-cu il. Niyazinin "Hamı Stalin kimi" qeydi ilə. Tam. 1 vərəq, 2 səh.. Niyazinin arxivi. DK № 14729.

1950 "Miracle" ("Möcüzə") fortepiano üçün prelüd. 27.05.1950-ci il. Bakı. Niyazinin imzası ilə. Tam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14736.

1950 "Kəsmə şikəstə" zərbi muğamı. Simfonik orkestr üçün instrumentovka. Partitura.1950-ci il.

Niyazinin imzası ilə. "Niyazi 50-ci il". Natamam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14751.

1953 "Çal oyna" mahnısı. Orkestrlə tenor üçün partitura. 02.06.1953-cü il. Niyazinin imzası ilə. Natamam. 2 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/66.

1953 Nəfəsli orkestr üçün əsər. Partitura. 26.07.1953-cü il. Niyazinin imzası ilə. Natamam. 6 vərəq, 11 səh. Niyazinin arxivi. DK № 14730/71.

1953 Ü.Hacıbəyov "Sevgili canan" - simfonik orkestr üçün Niyazinin işləməsi. "Bakı 21.11.1953-cü il. Ürəyimdə çox böyük ağrı ilə partituranı sona yetirdim. Düz 5 il, vaxt nece də tez keçir!!!" Niyazinin qeydi ilə. Tam. 4 vərəq, 7 səh. Niyazinin arxivi. DK № 14745.

1953 Z.Cabbarzadənin sözlərinə 2 səsli uşaq xoru və fortepiano üçün yazılmış "Vətənimiz" mahnısı. 29.10.1953-cü il. Bakı. Niyazinin imzası ilə. Tam.2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14737.

1953 Ü.Hacıbəyovun "Sənsiz" romansının Böyük Simfonik orkestr üçün Niyazinin instrumentovkası. Partitura. 22.10.1953-cü il. Bakı. Niyazinin imzası və "Niyazi, Bakı 20/X-53" qeydi ilə. Tam. 7 vərəq, 13 səh. Niyazinin arxivi. DK № 14746 b.

1957 "Marş". Nəfəsli orkestr üçün partitura. 28.10.1957-ci il. Niyazinin imzası ilə.Tam. 4 vərəq, 6 səh. Niyazinin arxivi. DK № 14730/82.

1957 "Makomanın sıçrayışı" - orkestr üçün partitura. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/61.

1957 "Savaş". Simfonik orkestr üçün "Maqomanın kəməri" kinofilminə musiqi. Partitura. 19.11.1957-ci il. Niyazinin imzası ilə.Tam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14727.

1958 Simfonik orkestr üçün əsər. Partitura. 1958-ci il. Niyazinin imzası ilə. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14722/75.

1961 "Çitra" baleti. Partitura. Niyazinin imzası ilə. Tam. 143 vərəq, 278 səh. Niyazinin arxivi. DK № 14833/94.

1961 "Çitra" baleti. Klavir. Natamam. 15 vərəq, 25 səh. Niyazinin arxivi. DK № 16188/3.

1966 Orkestr üçün əsər. Partitura. 16.04.1966-cı il. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/151.

1969 Telman Hacıyev "Abşeron nəğməsi" mahnısı. Niyazinin Böyük Simfonik orkestr üçün instrumentovkası. 14-15.09.1969-cu il. Bakı. Niyazinin imzası ilə. Tam. 3 vərəq, 6 səh.. Niyazinin arxivi. DK № 14750.

1969 Emin Mahmudov "Ayrılma məndən" mahnısı. Niyazinin Simfonik orkestr üşün instrumentovkası. Partitura. 1969-cu il. Niyazinin imzası ilə. Tam. 3 vərəq, 5 səh. Niyazinin arxivi. DK № 14748.

1969 Türk mahnısı "Neçin"- simfonik orkestr üçün partitura. 21.02.1969-cu il. Niyazinin imzası ilə. Tam. 5 vərəq, 10 səh. Niyazinin arxivi. DK № 14771.

1969 Ərəb mahnısı "Şelebiye". Simfonik orkestr üçün partitura. 1969-cu il. Bakı. Niyazinin imzası ilə. Tam. 3 vərəq, 6 səh. Niyazinin arxivi. DK № 14744.

1970 "Segah" muğamı. Simfonik orkestr üşün partitura. 1970-ci il. Bakı. Niyazinin imzası ilə. Natamam. 2 vərəq, 3 səh. DK № 14730/46.

1970 Ü.Hacıbəyli. "Arşın mal alan" musiqili komediyası. Niyazinin redaktə və instrumentovkası. 08.04.1970-ci il. Niyazinin imzası ilə. Natamam. 15 vərəq, 27 səh. Niyazinin arxivi. DK № 14730/161.

1974 Ü.Hacıbəyov. "Arşın mal alan" musiqili komediyası. Əsgərin ariyası. Niyazinin işləməsi. Klavir. 10.01.1974-cü il. Bakı. Niyazinin imzası ilə. Tam. 3 vərəq, 5 səh. Niyaziin arxivi. DK № 14833/91 b.

1976 "Qaytağı". Simfonik orkestr üçün partitura. 08.08.1976-cı il. Bakı. Niyazinin imzası ilə. Tam. 16 vərəq, 30 səh. Niyazinin arxivi. DK № 14833/93.

**Yazılma tarixi bilinməyən əlyazmaları**
*(daxilolma nömrələrinin ardıcıllığı ilə)*

1.“Uzunqulaq haqqında mahnı”. Orkestr və xor üçün klavir. Niyazinin imzası və qeydləri ilə:

“1. giriş -28 saniyə=14 dəq.
2. 2-ci kuplet -28 saniyə=14 dəq.
3. Hacımədin mətninin zəifləməsi – 4 saniyə=2 dəq.
4. Hacımədin mətni üçün pauza -12 san.=6 dəq.
5. Zərbə qədər Refren - 9 san.=4 1/2 dəq.
6. Orkestrin gurultusu və xor -54san..=27 dəq, 2 kuplet üçün”. Tam. 1vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14722/62.

2. “Xosrov və Şirin” operasından “Şapur və Şirin”. Klavir. Niyazinin “Fərhad uçuruma atılır” qeydi ilə. Tam. 4 vərəq, 7 səh. Niyazinin arxivi. DK № 14722/64.

3. “Cigitlər rəqsi”. Xalq çalğı alətləri orkestri üçün partitura. Niyazinin imzası və qeydi ilə: “A-dan B-yə qədər təkrar etmək 2-ci valatanın yerinə. Bakı”, “Rəşid, əgər nə isə dəyişmək lazım gəlsə xahiş edirəm mənsiz etmə, Niyazi”, “Yaxşısı budur bizə gəl, mən sənə təkrar göstərərəm. Niyazi”, “Tar, tütək, kamança”. Tam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK №14722/65.

4. “Xosrov və Şirin” operasından Şirinin ariyası. Klavir. Niyazinin imzası və qeydləri ilə. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14722/66.

5. Simfonik orkestr üçün əsər. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14722/67.

6. Fortepiano üçün “Preludion”, tapşırıq № 8. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14722/70.

7. “Qaçqınlar”. “Kəndlilər” kinofilmindən (Simfonik orkestr üçün) musiqi. Partitura. Niyazinin imzası ilə. Tam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14722/74.

8. “Muxtar bəyin cigitləri”. Giriş və ləzgihəngi №1, 2, 3. Simfonik orkestr üçün partitura. Niyazinin imzası ilə. Tam. 6 vərəq, 9 səh. Niyazinin arxivi. DK № 14722/74 b.

9. “Süleymanın aşıq mahnısı”. Simfonik orkestr üçün partitura. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14722/78.

10. “Süleymanın gedişi”- simfonik orkestr üçün partitura. Niyazinin imzası ilə. Tam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14722/79.

11. “Azarçı”. Simfonik orkestr üçün uvertüra. Partitura. Niyazinin imzası ilə. Tam. 5 vərəq, 6 səh. Niyazinin arxivi. DK № 14722/80.

12. “Fətəli xanın döyüşçülərinin rəqsi”. “Fətəli xan” kinofilmindən (Simfonik orkestr üçün) musiqi. Partitura. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14722/81.

13. “Çiçək tutmuş uşaqların rəqsi”. Klavir. Niyazinin imzası ilə. Tam. 1 vərəq, 1səh. Niyazinin arxivi. DK № 14722/84.

14. “Stalinə”. Səs və orkestr üçün (Tenor, bariton). Partitura, davamı. Tam 1 vərəq, 1səh. Niyazinin arxivi. DK № 14730/4.

15. Orkestr üçün əsər. Partitura. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/5.

16. Orkestr üçün əsər. Partitura. Niyazinin imzası ilə. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/6.

17. Orkestr üçün əsər. Partitura. Tam. 5 vərəq, 10 səh. Niyazinin arxivi. DK № 14730/8.

18. Eskizlər (yazılar). Niyazinin avtoqrafı ilə: “yazmaq lazımdır”. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK №14730/12.

19. “Toya hazırlıq”- orkestr üçün partitura. Niyazinin imzası və “(B)-dən (C)-yə köçürmək, (A)-dan (D)-yə köçürmək” qeydi ilə. Tam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14730/14.

20. Orkestrlə fortepiano üçün əsər. Partitura. Natamam. 4 vərəq, 8 səh. Niyazinin arxivi. DK № 14730/15.

21. Xalq çalğı alətləri orkestri üçün əsər. Partitura. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/16.

22. “Uvertüra”- orkestr üçün..Natamam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14730/18.

23. Orkestr üçün partitura. Natamam. 5 vərəq, 10 səh. Niyazinin arxivi. DK № 14730/19.

24. “Oyun süitası”- orkestr üçün partitura. Natamam. 2 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/20.

25.Ü. Hacıbəylinin “Arşın mal alan” musiqili komediyasından Telli və Vəlinin dueti. Niyazinin orkestr üçün instrumentovkası. Partitura. Tam. 3 vərəq, 5 səh. Niyazinin arxivi. DK № 14730/21,22.

26. A.Zeynallı. “Ala maqam”. Niyazinin orkestr üçün instrumentovkası. Tam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/23.

27. “Marş”- orkestr üçün partitura. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/24.

28. Kouz kinosuna “Bir daha atom bombası olmasın” Niyazinin orkestr üçün işləməsi. Partitura. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/25.

29. Orkestr üçün əsər. Partitura. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/26.

30. Orkestr üçün əsər. Partitura. Natamam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14730/27.

31. “407-ci Azərbaycan diviziyasının mahnıları”. Klavir. Niyazinin imzası ilə. Tam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/28.

32. Orkestr üçün əsər. Partitura. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/29.

33. I akta giriş. Klavir. Niyazinin imzası və qeydi ilə: “ 12 30 rəqəminə yeni”. Tam. 2 vərəq, 3 səh. DK № 14730/30.

34. Orkestr üçün əsər. Partitura. Natamam. 2vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/31.

35. Orkestr üçün əsər. Partitura. Natamam. 2vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/32.

36. “Yar gələcək”- orkestr üçün partitura. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/33.

37. “Allegro con brio”-orkestr üçün partitura. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/34.

38. Qaralama yazı. Partitura. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/35.

39. Orkestr üçün əsər. Partitura. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/36.

40. Yazı eskizlər. 4 vərəq, 5 səh. Natamam. Niyazinin arxivi. DK № 14730/37.

41. "Aman nənə" xalq mahnısının not yazısı. Tam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/39.

42. Səs və orkestr üçün əsər. Partitura. Natamam. 11 vərəq, 22 səh. Niyazinin arxivi. DK № 14730/40.

43. Orkestr üçün əsər. Partitura. Natamam. 16 vərəq, 31 səh. Niyazinin arxivi. DK № 14730/42.

44. Simfonik orkestr üçün əsər. Partitura. Natamam. 2 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/47.

45. D.Popper "Toxucu". Böyük simfonik orkestr üçün Niyazinin instrumentovkası. Niyazinin imzası ilə. Natamam. 4 vərəq, 7 səh. Niyazinin arxivi. DK № 14730/49.

46. N.A.Rimskiy-Korsakov. "Şərq romansı"- Niyazinin böyük simfonik orkestr üçün instrumentovkası. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/50.

47. D.Şostakoviç. "Romans". Niyazinin böyük simfonik orkestr üçün instrumentovkası. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/51.

48. "Rast" muğamı - Niyazinin fortepiano üçün işləməsi. Niyazinin imzası və "Xalq artisti Qurban Pirimovun və Hacı Məmmədovun tarda ifasından və Əməkdar artist Seyid Şuşınskinin oxumasından yazılıb" qeydi ilə. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/52.

49. "Rəng"-fortepiano və alət üçün. Natamam. 2 vərəq, 3 səh. Niyazinin arxivi.DK № 14730/53.

50. Böyük simfonik orkestr üçün əsər. Partitura. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/54.

51. Ü.Hacıbəyov "Dörtlük" – Niyazinin simfonik orkestr üçün orkestrovkası. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/57.

52. "Gənc qızın mahnısı". Simfonik orkestr üçün partitura. Niyazinin qeydi ilə: "A)-dan B)-yə qədər köçürmək"

Tam. 2 vərəq, 2səh. Niyazinin arxivi. DK № 14730/60.

53. "Hüseyn xanın döyüşçülərinin rəqsi" Klavir. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/64.

54. "Cekson qardaşlarının reydi"- orkestr üçün partitura. Niyazinin imzası ilə. Natamam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14730/65.

55. "Gimnastika hərəkətləri üçün musiqi"- nəfəsli orkestr üşün partitura. Niyazinin imzası ilə. Natamam. 5 vərəq, 7 səh. Niyazinin arxivi. DK № 14730/70.

56. Orkestr üçün əsər. Partitura. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/72.

57. Nazim Hikmətin "Karanfilli Ordam" əsərinə simfonik orkestr, xor və bariton üçün simfonik poema. Klavir. Niyazinin imzası ilə. Natamam. 6 vərəq, 12 səh. Niyazinin arxivi. DK № 14730/73.

58. Orkestr üçün əsər. Partitura. Natamam. 5 vərəq, 10 səh. Niyazinin arxivi. DK № 14730/74.

59. Orkestr üçün əsər. Partitura. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/75.

60. "Yürüş". Simfonik orkestr üçün partitura. Natamam. 6 vərəq, 12 səh. Niyazinin arxivi. DK № 14730/77.

61. Orkestr üçün əsər. Partitura. Natamam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14730/78.

62. "Savalanda səhər"-orkestr üçün uvertüra. Partitura. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/80.

63. Simfonik orkestr üçün əsər. Partitura. Niyazinin imzası ilə. Natamam. 6 vərəq, 5 səh. Niyazinin arxivi. DK № 14730/81.

64. "Döyüş siqnalları". Mis nəfəsli alətlər orkestri üçün. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/84.

65. "Xosrov və Şirin" operası. Partitura. Natamam. 18 vərəq, 36 səh. Niyazinin arxivi. DK №14730/85.

66. "Xosrov və Şirin" operasından Şirinin ariyası. Orkestr üçün partitura. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/86.

67. "Xosrov və Şirin" operasından Şirinin ariyası. Klavir. Mətnin müəllifi- M.Rəfili (rus dilinə tərcümə). "Niyazinin musiqisi" qeydi ilə. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/87.

68. Dörd sıralıq xor üçün final. Tam. 4 vərəq, 5 səh. Niyazinin arxivi. DK №14730/92.

69. "Stalin haqqında mahnı"- səs və fortepiano üçün. Niyazinin imzası ilə. Tam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/93.

70. Simfoniya № 1. İki fortepiano üçün işləmə. Niyazinin imzası ilə. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/94.

71. "Tempo di marsia"- səs və fortepiano üçün mahnı. Tam. 2 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/95.

72. Orkestr üçün əsər. Partitura. Natamam. 1vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/96.

73. Klarnetə 3 kadensiya. Solo 1) inB, inA, inA. Tam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/97.

74. "Bakı nəğməsi"- səs və fortepiano üçün. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/98.

75. " Gənc qızın rəqsi"- fortepiano üçün. Natamam. 2 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/99.

76. Simfonik orkestr üçün əsər. Partitura. Natamam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14730/100.

77. Simfonik orkestr üçün əsər. Partitura. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/101.

78. "Görüş marşı". Nəfəsli orkestr üçün partitura. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/109.

79. "Şadlıq nəğməsi"-səs və fortepiano üçün. Niyazinin imzası ilə. Tam. 1 vərəq, 1 səh.Niyazinin arxivi. DK № 14730/110.

80. "Əlavə 2"- orkestr üçün partitura. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/111.

81. “Uzunqulağa”- orkestr üçün partitura. Niyazinin “Bakı” qeydi ilə. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/112.

82. “Nahələr” mahnısı. Səs və fortepiano üçün. Sözləri Flizindir.Tam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/113.

83. “Xosrov və Şirin” operasından fraqment. Klavir. Niyazinin imzası ilə. Natamam.1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/114.

84. “Qara gilə” xalq mahnısı. Simfonik orkestr üçün işləmə. Partitura. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/115.

85. “Ləzgi həngi”- orkestr üçün. Partitura. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/116.

86. “Vals”- fortepiano üçün. Niyazinin imzası ilə.Tam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/117.

87. “Torpaq”. Simfonik orkestr üçün partitura. Niyazinin imzası ilə.Tam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/118.

88. “Sülh mahnısı”. Səs və fortepiano üçün. Sözləri: Zeynal Cabbarzadə. Niyazinin imzası ilə. Tam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/120.

89. “Azərbaycanlılar”. İki fortepiano üçün. Niyazinin “Əməkdar İncəsənət xadimi Niyazi” qeydi ilə. Tam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/122.

90. Fortepiano üçün pyes. Tam. 1vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/124.

91. “Zirinq”. Simfonik orkestr üçün partitura. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/125.

92. “Uzun dərə”- fortepiano üçün. Niyazinin imzası ilə. Natamam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14730/126.

93. Nəfəsli orkestr üçün əsər. Partitura. Niyazinin “Bakı, 24/III. Niyazi, “Neftyanik” teatrı”qeydi ilə.Tam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14730/127.

94. “Əlavə”- simfonik orkestr üçün. partitura.Tam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/128.

95. “Mansur” kinofilminə yazılmış musiqi. Simfonik orkestr üçün partitura. Tam. 4 vərəq, 6 səh. Niyazinin arxivi. DK № 14730/129.

96. “Sübh çağı” (V aktın başlanğıcı). Simfonik orkestr üçün partitura. Tam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/130.

97. “Rəqs”-nəfəsli orkestr üçün partitura. Niyazinin imzası ilə. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/131.

98. Səs, fortepiano və orkestr üçün əsər. Klavir. Niyazinin “Nəqarətsiz” qeydi ilə. Natamam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14730/133.

99. “Yoldaş Stalin haqqında mahnı”. Xor, 2 fortepiano və simfonik orkestr üçün partitura. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/134.

100. Orkestr üçün “Rəqsə giriş”. Partitura. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/137.

101. Simfonik orkestr üçün əsər. Partitura. Niyazinin imzası ilə. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14730/143.

102. Simfonik orkestr üçün əsər. Partitura. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/145.

103. “Xəstəxana”. Simfonik orkestr üçün partitura. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/146.

104. “Finala doğru” - “Buruq №2” orkestr üçün partitura. Natamam. 4 vərəq, 7 səh. Niyazinin arxivi. DK № 14730/147.

105. Simfonik orkestr üçün əsər. Partitura. Natamam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14730/148.

106. Nəfəsli orkestr üçün əsər. Partitura. Natamam. 1 vərəq, 1 səh.. Niyazinin arxivi. DK № 14730/150.

107. Fortepiano üçün “Variasiya №1” mövzusu. Tam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/153.

108. “Kürdi”- simfonik orkestr üçün. Partitura. “Niyazi” imzası ilə. Tam. 4 vərəq, 7 səh. Niyazinin arxivi. DK № 14731.

109. “Stalinə”- səs və fortepiano üçün mahnı. Sözləri R.Rzanındır. Niyazinin imzası ilə.Tam. 4 vərəq, 7 səh. Niyazinin arxivi. DK № 14733.

110. “İlk baharımız sənsiz olmasın” mahnısı. Sözləri Z.Cabbarzadənindir. Niyazinin “Hər şey Stalin kimi”

qeydi ilə.“Stalin haqqında mahnı”- səs və fortepiano üçün. Niyazinin imzası ilə. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK № 14734.

111. “Se voi goder la vita”- simfonik orkestr üçün partitura. Tam. 7 vərəq, 14 səh. Niyazinin arxivi. DK № 14735/4.

112. “Ay gülüm nanay”. Simfonik orkestr üçün partitura. Tam. 8 vərəq, 16 səh. Niyazinin arxivi. DK № 14735/7.

113. “ Zeranda ”. Simfonik orkestr üçün partitura. Tam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14735/16.

114. “Şur” muğamından rəng, orkestr üçün partitura. Tam. 3 vərəq, 5 səh. Niyazinin arxivi. DK № 14735/21.

115. “Rəng” (Şur muğamından). 4 əllə fortepiano üçün pyes. Niyazinin imzası və “№ 5 B.” və “Həcər Kafiyə hədiyyə” qeydi ilə. Tam. 2 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14735/22.

116. “Xosrov və Şirin”operasından “Şapurun nəqli”. Klavir. Niyazinin imzası ilə. Tam. 3 vərəq, 6 səh.. Niyazinin arxivi. DK № 14743.

117. “Bəxtiyarlıq mahnısı”. Səs və fortepiano üçün musiqi. Niyazi və R. Hacıyev.Tam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14753/23.

118. Ü. Hacıbəyovun “Arşın mal alan” musiqili komediyasından “Gülçöhrənin iqrası”. Simfonik orkestr üçün partitura. Niyazinin yeni redaktə və orkestrovkası. Niyazinin “Niyazi, Bakı” qeydi ilə. Tam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14833/91 a.

119. Ü. Hacıbəyovun “Arşın mal alan” musiqili komediyasından Cahan xalanın kupletləri. Niyazinin Simfonik orkestr üçün yeni redaktə və orkestrovkası. Klavir. Niyazinin imzası ilə. Tam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK №14833/91 v.

120. Ü. Hacıbəyovun “Arşın mal alan” musiqili komediyasından “Tellinin şarkısı”. Simfonik orkestr üçün partitura. Niyazinin yeni redaktə və orkestrovkası. Niyazinin imzası ilə. Tam. 3 vərəq, 6 səh. Niyazinin arxivi. DK № 14833/91 e.

121. Ü.Hacıbəyovun “Arşın mal alan” musiqili komediyasından Əsgərin ariyası. Niyazi Tağızadə Hacıbəyovun simfonik orkestr üçün yeni redaktə və orkestrovkası. Partitura. Niyazinin “Niyazi, Bakı” qeydi ilə. Tam.3 vərəq, 5 səh. Niyazinin arxivi. DK № 14833/91 j.

122. “Yallı”- simfonik orkestr üçün partitura. Tam. 10 vərəq, 20 səh.. Niyazinin arxivi. DK № 16188/1.

123. Musiqi təhsili cədvəli. Tam. 1vərəq, 1 səh. Niyazinin arxivi. DK № 16188/2.

***Köçürülmüş əsərlər***

(daxilolma nömrələrinin ardıcıllığı ilə)

1. Orkestr üçün əsər. Partitura. Niyazinin “B.Q.K. 8/XII-1937-ci il”qeydi ilə. Natamam. 10 vərəq, 20 səh. Niyazinin arxivi. DK № 14730/43.

2. “Xosrov və Şirin” operası. II akt. Partitura. Natamam. 10 vərəq, 20 səh. Niyazini arxivi. DK № 14730/55.

3. “Rast” muğamı - 2 fortepiano üçün. S.Q.Musabəyova və İ.Plyam tərəfindən köçürülmüşdür (kserokopiya). Niyazinin imzası ilə. Natamam. 11 vərəq, 22 səh. Niyazinin arxivi. DK № 14730/162.

4. Ü.Hacıbəyov “Koroğlu” opersından aşığın mahnısı. Partitura. Tam. 1 vərəq, 2 səh. Niyazinin arxivi DK№ 14735/25.

5. Ü, Hacıbəyovun “Koroğlu” operasında Koroğlunun ariyası. SSRİ Xalq artisti Bülbülün kitabxanasından. Partitura. Tam .15 vərəq, 29 səh. Niyazinin arxivi. DK № 14735/26.

6. “Kantabile ad libitum”. Simfonik orkestr üçün partitura. Tam. 9 vərəq, 16 səh. Niyazinin arxivi. DK № 14735/42.

7. “Qaytağı”- simfonik orkestr üçün qravür. Partitura. Niyazinin imzası ilə. Tam. 33 vərəq, 65 səh. Niyazinin arxivi. DK № 14735/43.

8. “Arzu” mahnısı. Orkestrin simli alətləri üçün partiyalar. Niyazinin imzası ilə. Tam. 17 vərəq, 34 səh. və 7 vərəq, 14 səh. Kserokopiya. Niyazinin arxivi. DK № 14735/44.

9. Azərbaycan xalq mahnısı “Gözəlim sənsən”. Orkestr alətləri üçün partiyalar. Niyazinin “Dostum Bülbülə” qeydi ilə. Tam. 7 vərəq, 10 səh.. Niyazinin arxivi. DK № 14735/45.

10. “Zaqatala süitası”- Böyük simfonik orkestr üçün partitura.“Bakı, 1933-cü il 7 dekabr, Niyazi” qeydi ilə. Köçürücü: Q.İ.Davıdov. Tam. 53 vərəq, 106 səh. Niyazinin arxivi. DK № 14740.

11. Ü.Hacıbəyov. “Azərbaycan SSR-nin Himni”- Simfonik orkestr üçün partitura. Niyazi və T.Quliyevin yeni redaktəsi.Tam. 5 vərəq, 9 səh. Niyazinin arxivi.DK № 14756/b.

12.. Ü.Hacıbəyov. "Azərbaycan SSR-nin Himni"- nəfəsli orkestr üçün partitura. Niyazi və T.Quliyevin yeni redaktəsi.Tam. 6 vərəq, 12 səhifə. Niyazinin arxivi. DK№14756/v

13.. Ü.Hacıbəyov . "Azərbaycan SSR-nin Himni - Simfonik orkestr üçün partitura. Niyazi və T.Quliyevin yeni redaktəsi. Tam. 6 vərəq ,12 səhifə. Niyazinin arxivi.DK № 14756/q.

14. Fortepiano ilə orkestr üçün konsert, III hissə. Fortepiano partiyası. 20.01.1944. Niyazinin "20/I.44 il" qeydi ilə. Natamam. 3 vərəq, 6 səh. Niyazinin arxivi. DK № 16072.

***Niyazinin arxivində başqa müəlliflərin əsərləri.***

(daxilolma nömrələrinin ardıcıllığı ilə)

1. Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" poeması əsasında Vano Qokiyelinin eyniadlı xoreoqrafik poemasından "Lile".IV aktın III şəklinə giriş.Vano Qokiyelinin "Günəş doğuşu" simfonik şəkli. 8/XII-1937-ci il. Natamam. 1 vərəq, 1 səh. Niyazinin arxivi. DK № 14730/136.

2. F.Əmirov. "Fraqmentlər" (eskislər) əsəri. Natamam. 1 vərəq, 2 səh. F.Əmirovun imzası ilə. Niyazinin arxivi. DK 14730/164.

3. Q.Qarayev. "Xoşbəxtlik nəğməsi" kantatasına giriş. Partitura. Natamam.1 vərəq, 2 səh. Niyazinin arxivi. DK 14730/165.

4. R.Hacıyev. "Həcər". Səs və fortepiano üçün lirik mahnı. Natamam. 2 vərəq, 3səh. Niyazinin arxivi. DK 14730/166.

5. R.Hacıyev. "Həcər". Səs və fortepiano üçün lirik mahnı. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK 14730/167.

6. R.Hacıyev ."Həcərə" lirik mahnısı. Simfonik orkestri üçün partitura. Natamam. 1 vərəq, 1səh. Niyazinin arxivi. DK 14730/168.

7. D.Arakçiyevin (Arakişvili) "Şota Rustaveli haqqında dastan" operasına giriş. Simfonik orkestir üçün. partitura. Niyazinin imzası ilə. Tam. 21 vərəq, 42 səh. Niyazinin arxivi. DK № 14735/27.

8. Leo Paliaşvilinin "Pələng dərisi geymiş pəhləvan" operasından Nestan - Daricanın ikinci ariyası. Partitura. Niyazinin imzası ilə. Tam. 6 vərəq, 11 səh. Niyazinin arxivi. DK № 14735/28.

9. Leo Paliaşvilinin "Pələng dərisi geymiş pəhləvan" operasından "Kacetlər" rəqsi. Partitura. Tam. 15 vərəq, 30 səh. Niyazinin arxivi. DK № 14735/29 .

10. Vano Qokiyelinin “Pələng dərisi geymiş pəhləvan ” xoreoqrafik poemasından döyüşçülərin rəqsi. Partitura. 1936-cı il. Tam.24 vərəq, 47 səh. Niyazinin arxivi. DK № 14735/30.

11. D.Arakçiyevin “Şota Rustaveli haqqında dastan” operasından çariça Tamaranın Kolotinosu. Partitura. Niyazinin imzası ilə. Tam. 6 vərəq,11 səh. Niyazinin arxivi. DK № 14735/31.

12. L.Paliaşvilinin “Pələng dərisi geymiş pəhləvan” operasından Fatma və Aftandilin dueti. Partitura. Tam. 11 vərəq, 22 səh. Niyazinin arxivi. DK № 14735/32.

13. Azərbaycan xalq mahnısı “Yadıma düşdü”. R.M.Qlierin orkestr üçün instrumentovka və işləməsi. Partitura. Tam, 6 vərəq, 11 səh. Niyazinin arxivi. DK № 14753.

14. Soltan Hacıbəyovun “Ukraynaya salam” mahnısı (səs və fortepiano üçün). Söz. Z.Cabbarzadə. 1954-cü il. S.Hacıbəyovun imzası ilə. Tam. 2 vərəq 3səh. Niyazinin arxivi. DK №14753/a.

15. M.Maqomayevin “Nərgiz” operasından rəqs. R.M.Qlierin hormonizasiyası. Partitura. Tam. 11 vərəq, 21 səh. Niyazinin arxivi. DK № 14754.

16. Fərhad Bədəlbəyli. “Fortepiano üçün prelüdiya” (Niyaziyə həsr edilib).1965-ci il. Tam. 2 vərəq, 2 səh. Niyazinin arxivi. DK № 14755.

17. Məmməd İsrafilzadə. “Hüsnün gözəli”. Xor və fortepiano üçün. Sözləri Nizaminindir. 10.07.1941-ci il, Bakı. Niyazinin ”Nizaminin sözləri İsrafilzadənin yazdığı musiqiyə uyğundur” qeydi ilə və M.İsrafilzadənin “10/VII-41, Bakı” imzası ilə.Tam. 5 vərəq, 7 səh. Niyazinin arxivi. DK № 14755/a.

18. Ü.Hacıbəyov “Azərbaycan SSR-nin himni”. T.Quliyev və Niyazinin yeni (2-ci) redaktəsi. T.Quliyevin Niyazinin qeydləri ilə. Klavir.Tam. 4 vərəq, 6 səh. Niyazinin arxivi. DK № 14756/a.

19. Rauf Hacıyevin “Yurdumun nəğməsi”. Sözləri M.Rahimindir. Səs və fortepiano üçün. Tam. 2 vərəq 3 səh. Niyazinin arxivi. DK№14757.

20. R.Hacıyevin “Həcərə” mahnısı. Səs və fortepiano üçün.”22/IV-39” qeydi və imzası ilə. Tam. 2 vərəq, 3 səh. Niyazinin arxivi. DK № 14757/a.

21. F.Əmirovun Fortepiano ilə orkestr üçün əsəri. Klavir. 26.V.44.- 06.IV.45. F.Əmirovun imzası ilə. Natamam. 1 vərəq, 2 səh. Niyazinin arxivi. DK 14730/163.

22. Azərbaycan xalq musiqilərinin not yazıları. Qurban Pirimovun ifasından Q.Qarayev,C.Hacıyev, M.S.İsmayılovun not yazıları.Tam. 2 vərəq, 4 səh. Niyazinin arxivi. DK 14735/46.




"Zarafat", fortepiano üçün pyes.   1930-cu il




"Skertso", fortepiano üçün pyes.   1930-cu il




“Zaqatala süitası”. Böyük simfonik orkestr üçün partiyalar . 1933-cü il




“Rəqs”. Fortepiano üçün. Həcər Kafiyə hədiyyə 28.04.1934-cü il



"Şur" və "Rast" muğamlarının not yazısı.
1935-ci il



"Mahnı". Simli kvartet üçün partitura.
02.06.1936-cı il



"Birinci namizəd". Xor və fortepiano üçün mahnı. 27.05.1938-ci il



"Müsavat marşı". "Kəndlilər" kino filminə yazılmış musiqi. Partitura. 27.04.1939-cu il



“Kəklik” valsı. Simfonik orkestr üçün partitura.
1940-cı il




“Mazurqa”. Simfonik orkestr üçün partitura.
1941-ci il




“Təbrizim”. Fortepiano və səs üçün mahnı.
1941-ci il




“Xosrov və Şirin”operasından Şirinin ariyası.
Klavir. 1942-ci il



“Aşıq mahnısı”. Fortepiano və səs üçün mahnı. 14.09.1949-cu il



“İlk baharımız sənsiz olmasın”. Fortepiano və səs üçün mahnı. 20.11.1949-cu il



“Kəsmə Şikəstə”muğamı. Simfonik orkestr üçün işləmə. Partitura. 1950-ci il




Üzeyir Hacıbəylinin“Arşın mal alan” musiqili komediyası. Niyazinin redaktə və instrumentovkası. 8 aprel 1970-ci il

# SƏNƏDLƏR

*(xronoloji ardıcıllıqla)*

1. Niyazi Hacıbəyovla Bakı şəhəri 360 №-li sahənin Evlər idarəsi arasında 9 yanvar Kirov prospekti, 19/13 №li mənzilin (3-cü blok, 2-ci mərtəbə, 2 otaqlı, 41 kv.m) icarəyə verilməsi haqqında 14 may 1938-ci il tarixli Müqavilə №14 (müqavilənini müddəti 14 may 1943-cü ildə bitir) və mənzilin qəbul-təhvili haqqında Akt. Müqavilə və Aktda Niyazinin şəxsi imzası. (Konvertlə). DK № 14790/127.

2. Tağızadə Niyazi Zülfüqar oğluna M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası tərəfindən verilmiş əmək kitabçası. 25 yanvar 1939-cu il. DK № 16093.

3. Tağızadə Niyaziyə Azərbaycan LKGİ MK-nın II plenumunun işində iştirak etmək hüququ verən buraxılış vərəqəsi № 38. Bütün iclaslar üçün.13 mart 1941-ci il. DK № 14790/130.

4. Tağızadə Niyazi Zülfüqar oğlunun pasportu. Bakı şəhəri 5-ci milis pasport stolu tərəfindən 18 iyun 1941-ci il tarixində verilmişdir. Niyazinin şəxsi imzası ilə. 8 vərəq. DK № 14790/99.

5. Evlənmə haqqında şəhadətnamə № 771. Tağızadə Niyazi Zülfüqar oğlu, Əliyeva Həcər Teymur qızı, evləndikdən sonrakı familiyaları - Tağızadə. Azərbaycan Xalq Daxili İşlər Komissariatı. 30 sentyabr 1941-ci il. DK № 14790/125.

6. Tağızadə Niyazi Zülfüqar oğlunun SSRİ Ali Soveti Rəyasət heyətinin 6 iyun 1945-ci il tarixli fərmanı ilə "1941-1945-ci illər Böyük Vətən Müharibəsində fədakar əməyə görə" medalı ilə təltif olunması haqqında vəsiqə № 0028026. Aprel 1946-cı il (rus dilində). DK № 14722/191.

7. Tağızadə Niyazi Zülfüqar oğlunun Bakı şəhər Zəhmətkeşləri Deputatları Sovetinin 291 №-li seçki dairəsindən deputatı seçilməsi haqqında vəsiqə. 26 dekabr 1950-ci il. DK № 14790/102.

8. Tağızadə Niyazinin Bakı şəhəri DAM-ın ictimai avtomobil müfəttişi olduğu haqqında Vəsiqə № 15. 31 dekabr 1950-ci ilədək etibarlıdır. DK № 14790/112.

9. Tağızadə Niyaziyə verilmiş Bakı şəhər zəhmətkeşləri deputatları Sovetinin Deputat bileti № 291. III çağırış. Niyazinin şəxsi imzası ilə. 1950-ci il. DK № 15375.

10. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin Soltan Hacbəyovun imzası ilə 1951-ci ilin yanvar ayı üçün konsert və məşq planı (makina çapı). Üzərində Şəmsi Bədəlbəylinin dərkənarı və Niyazinin qeydləri (rus dilində). Fərhad Bədəlbəy- linin muzeyə hədiyyə yazısı ilə. DK № 16439.

11. Simfonik orkestrin baş dirijoru Niyazinin 49 №-li Şəxsi işi (qovluq). DK № 14790/100. Qovluğun içində 1954 – 1968-ci illərə aid 8 sənəd:

a) Niyazinin fotosu yapışdırılmış kadr uçotunun şəxsi vərəqəsi. Niyazinin imzası ilə. 10 dekabr 1954-cü il (rus dilində çap olunmuş). - 4 vərəq;

